**GÜNEL XIDIRLI**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**Üzeyir Hacıbəyli 68**
**filmanpiriyev@mail.ru**

# XƏSTƏ HASAN LİRIKASINDA MƏZMUN ZƏNGINLİYİ

**Xülasə**

Məqalə Axıska türklərinə məxsus folklor nümunələrinin, daha konkret desək onun ən görkəmli nümayəndələrindən olan Xəstə Hasanın yaradıcılığındakı mövzu istiqamətlərinə həsr olunmuşdur. Xəstə Hasanın sənəti və yaradıcılığının böyüklük və ululuğu öz qaynağını ilk növbədə mühitdən almışdır. Xəstə Hasanın poeziyasının məzmun zənginliyinə həsr olunmuş bu məqalədə sənətkarın poetik irsinin, xüsusilə Axıskada məşhur olmasının səbəblərinin elmi əsasları təhlil edilmişdir.

Sənətkarın poeziyası mövzu, janr, bədii məna sistemi baxımından çox zəngindir. Onun şeirlərinin mövzu əhatəsi dini, vətən həsrəti, məhəbbət, əxlaqi-didaktik və s. baxımından təhlil edilmişdir. Sənətkarın vətən həsrəti ifadə edən şeirlərində xalqın həyatında baş verən siyasi, tarixi hadisələrlə bağlılıq diqqət mərkəzində saxlanılmışdır. Dini məzmunda söylənmiş şeirlərdə islamın müqəddəs kitabı, "Quran", peyğəmbər Məhəmməd rəsuləleyhüssəlam, 12 imam, Həzrət Əlinin adları çəkilir. Belə şeirlərdə təkcə Allah, Məhəmməd, Əli və başqaları sadəcə tərənnüm olunmur, insanlara həmçinin yüksək mənəvi dəyərlər təbliğ olunur. Aşığın poeziyasında məhəbbət mövzusunun çoxlu çalarları müşahidə olunur. Nümunələrdən göründüyü kimi, aşıq məhəbbət lirikasında gözəllik motivlərindən istifadə edərək insanın daxili dünyasına sirayət edir, onu gözəl əməllərə, əxlaqlı və ədəb-ərkanlı olmağa dəvət edir. Qadın gözəlliyinin başlıca əlaməti kimi, əxlaq, mərifət olduğu nəzərə çatdırılır.

Xəstə Hasan müasir aşıq poeziyasında klassik poetik ənənələrin görkəmli davamçılarındandır. Burada həmçinin ustad aşığın fərdi üslubunun əsas cəhətləri, bədii təsvir və ifadə vasitələrindən istifadə məharəti də konkret nümunələr əsasında şərh olunmuşdur. Məqalədən aydın olur ki, Xəstə Hasan Azərbaycan aşıq poeziyasının mövzu dairəsinin bütün mütərəqqi ənənələrini davam etdirmişdir. Şeirlərin aktuallıq kəsb etmə məziyyətləri bədii örnəklər vasitəsi ilə aydınlaşdırılmışdır.

*Açar sözlər: məhəbbət, şeir, dini, gözəl, aşıq*

Xəstə Hasan Axıska aşıq mühitinin yetişdirdiyi ən görkəmli sənətkarlardan biridir. Onun zəngin yaradıcılığı mühitin tarixi-mədəni, bədii-estetik mənzərəsini aydınlaşdırmaq baxımından mühüm əhəmiyyət daşıyır. Tarixi ənənənin yararlığı, sənətin özünəməxsusluğunun qorunuşu ilə zənginləşməsi timsalında Axıska aşıq mühiti funksional xarakteri ilə seçilir. Aşıq Zülali, Aşıq Səfili, Ürfani, Qul Qaranı, Aşıq Şenlik, Usta Polad, Aşıq Ömər, Aşıq Teyfi, Aşıq Nuru və s. ustad sənətkarlar bu mühitin formalaşmasında müstəsna rol oynamışlar. Axısqa aşıq mühitinin ustad sənətkarı Xəstə Hasan da öz fitri istedadı, zəngin yaradıcı təbi ilə ədəbi-mədəni prosesə töhfələrini vermişdir. Mövzu zənginliyi ilə seçilən şeirləri aşıqların repertuarında uzun illər türk ellərni dolaşmışdır. Ayrı-ayrı şeirlərinin zəngin informasiya yükü bunun göstəricisdir. Məsələn, "Yüzdə bir" rədifli divanisində bu sənətkarların əksəriyyətinin adını çəkir.

Abu çeşmə göllərində sona da bir, qaz da bir,
Süsən sünbül, mor mənəvşə, bülbül ötər yazda bir.
Vaqif dərtdən xəbərdardı, gövhərin qiyməti yox,
Qul Qaranı, Qara Zülal, Aşıq Ömər sözdə bir.

Molla Xəlis dəlalətdə içdi eşqin badasın.
Küfdadiyə da verildi, onnan da ziyadasın.
Urfanı dərya-ümmandı, keçmək olmaz adasın.
Aşıq Seyfi, Usta Polad, Dəli Tamo sazda bir. (8, 133)

Ustad sənətkarın dövrünün aşıqlarını ayrı-ayrı misra və bəndlərdə xatırlaması onların sənətinə verilən qiymət idi. Bu gün onların yaradıcılığı tam şəkildə əlimizə çatmasa da, ancaq məlum nümunələr ümumi təsəvvür formalaşdırmağa imkan yaradır. “Çox aşıqlar gəldi, getdi, Xəstə Hasan bir” deyən sənətkar özü ilə bağlı dolğun bilgi verir. Həqiqətən də Xəstə Hasan XIX yüzilin birinci yarısında və ortalarında yazıb-yaradan ən məşhur sənətkar olmuşdur. Xəstə Hasan çoxlu sayda qoşma, gəraylı, divani, təcnis, müxəmməs və bir neçə dastan yaratmışdır. Həmçinin aşıq dövrünün görkəmli söz ustaları Qul Qaranı, Usta Polad, Ürfani ilə deyişmişdir. Aşığın lirik poeziyası ideya-məzmun xüsusiyyətlərinə görə fərqlənir. Xəstə Hasan saf məhəbbəti, yurdunun gözəllərini tərənnüm etməklə bərabər, həm də dövrünün ictimai-siyasi hadisələrinə öz mövqeyini bildirir. Əxlaqi, nəsihətamiz fikirləri ilə insanları doğru yola çağırır. Aşığın lirik poeziyasını mövzusuna, ideyasına görə aşağıdakı şəkildə qruplaşdırmaq olar:

a) Vətən həsrəti ifadə edən şeirlər;
b) dini şeirlər;
c) məhəbbəti tərənnüm edən şeirlər;
ç) öyüd-nəsihət ruhlu şeirlər.

Aşıq sənəti bütün dövlərdə xalqın həyatında baş verən mühüm siyasi, tarixi hadisələri özündə əks etdirmişdi. Axısqa aşıq mühitinin elə bir saz-söz sənətkarı yoxdur ki, yaşayıb-yaratdığı dövrün hadisələrinə, ictimai ağrılarına öz münasibətini bildirməsin. Xəstə Hasan da bir ustad sənətkar, el aşığı kimi baş verənlərə biganə qalmamış, dövrün ictimai, siyasi, mədəni proseslərinə yaradıcı mövqeyini bildirməyə üstünlük vermişdir. Yurd, torpaq vətən sevgisi bir istiqamət kimi onun şeirlərində mühüm yer tutur.

Ustad sənətkar vaxtilə qaçqın və səfil erməniləri Axılkələkdəki Dırqına kəndində ürək genişliyi ilə qarşılamış, onlara yer vermişdir. Əvəzində isə aşıq otlağına yiyələnmiş təzə qonşularının nanakorluğuyla üzləşmişdir. Bunlar ustad sənətkarın gözündən yayınmamış və ona “Dırqınada” rədifli gəraylısında öz münasibətini bildirmişdir.

Erməniyə yol açıldı,
Yuva saldı Dırqınada
Yerli getdi, yersiz qaldı,
Əcəb haldı Dırqınada. (4, 20)

Göründüyü kimi, bu nümunə Xəstə Hasanın zamanında ermənilərlə bağlı olanları, onların Axıskada məqsədli yerləşdirilməsini, dövlət siyasətinin türkə münasibətini, erməni xislətini aydınlaşdırmaq baxımından faktlaşır. Tarixi prosesin gedişi haqqında dolğun təsəvvür formalaşdırır.

Ümumiyyətlə, Xəstə Hasanın şeirləri janr və məzmun səviyyəsi baxımından zənginliklə səciyyələnir. Onun şeirlərinin mövzu əhatəsi təkcə vətən həsrəti, qürbət sıxıntısı, nisgil, ayrılıq motivləri ilə məhdudlaşmır. Dini məzmunda söylənmiş və yazılmış şeirlər də xüsusi yer tutur. Bu şeirlər islami xarakter daşıyır və müqəddəs dini dəyərləri tərənnüm edir. Xəstə Hasanın şeirlərində Allah, Məhəmməd peyğəmbər, islamın müqəddəs kitabı “Quran”, Həzrət Əli, İmam Hüseyn və başqa müqəddəslərimizlə bağlı dolğun bilgilər vardır. Məsələn:

Yer altında qızıl öküz ürüzgar üsdündədir,
Hax Talanın bir nişanı peyğəmbər üstündədir.
Ömər, Osman, Abubəkir, şafaətçi ya Rəsul.
Bu dünyanın dörd ətrafı bir şahmar üsdündədir.

Ol yaradan Allah ki, çox mal verib vəliyə,
Çox malın çox əziyyəti var, onçun verməz dəliyə,

Asdanımsan-deyib, əlini çək ki, çəkdi Əliyə, ır
Heç kafıra boyun əyməz, Zülfüqar üstündədir. (8, 130)

Bu tip şeirlər aşıq yaradıcılığında bir istiqamət olaraq özünü göstərir. Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Valeh, Ağ Aşıq, Aşıq Alı, Şəmkirli Aşıq Hüseyn və s. Sənətkarlar şeirlərində dini mövzulu nümunələrə daha çox üstünlük vermişlər. Dastanlarda da bu özünə genişliklə yer alır. Aşıq yaradıcılığında dini mövzuların tutduğu yeri P.Əfəndiyev belə vurğulayır: "Qədimdən bəri el sənətkarları dini mövzulara da maraq göstərmişlər. Aşıqlar dini qayda-qanunların əxlaqi-fəlsəfi mahiyyətini dərindən hiss etmiş və öz şeirlərində yeri gəldikcə ondan ümdə bir vasitə kimi istifadə etmişlər. Xüsusilə dini möcüzələr, peyğəmbərlərlə, imamlarla, cənnət və cəhənnəmlə əlaqədar mövzular aşıq şeirlərində az da olsa qalmışdır. Bu cür nümunələrə əsas etibarilə ustad aşıqların deyişmələrində, bağlama və qıfılbəndlərində rast gəlirik." (3, 282) Axıska aşıq mühitidə bu müstəvidə tipik nümunələrlə diqqəti cəlb edir. Xəstə Hasan və digər ustad aşıqlar bu cür dini şeirlərdə Allaha Yaradan, Qəni Sübhan, Mövla, Xudam, Rəbb deyə müraciət etmişdilər:

Bizi yoxdan var eyləyən,
Qəni Sübhan birdi bir.
Abu, ataş, xaki- baddan
Xəlq olun can birdi bir.
Bir qətrədən xəlq eyləyib,
On səkkiz min aləmi,
Canlı, cansız hər nə varsa
Külli cahan birdi bir. (5, 55)

Aşığın şeirlərində təkcə Allah, Məhəmməd, Əli və başqaları yalnız tərənnüm və mədh olunmur, belə şeirlərdə əsas məqsəd insanlara mənəvi dəyərlərin təbliğ olunmasıdır. Xəstə Hasanın Aşıq Ömər, Aşıq Qaranı ilə bəzi deyişmələri, həmçinin "Eyləmə", "Nədi" və s. şeirləri dini mövzudadır. Bu nümunələr ustadın dini elmlərə, onun qayda və qanunlarına, müqəddəs kitablara lazımı qədər bələdliyini göstərir.

Qul Qaranı:
Otuz iki fərz içində oxunanı bilməli,
Sayminə səcdə et də, həm salavat qılmalı,
Qaranı yüz yaşasa da axır bir gün ölməli,
Bizi yoxdan var edənin yazdığı fərmana bax.
Xəstə Hasan:
Hasan deyər qiymatda suru çalan kim olu,
Əzrayıl ki, can alandı, onun canın kim alı,
Gələndə ölüm bazarı, tarixlər tamam olu,
Xudam qismət eyləy'sə, beş əşrə Qurana bax. (5. 62)

Şeirdən aydınlaşır ki, həm Xəstə Hasan, həm də Qarani Quranı oxumağı, dini dəyərlərə əməl etməyi müqəddəs borc bilirdilər. Ona görə də hikmətamiz fikirlərini dini obrazlarla ifadə etmişdilər. Deyişmələr bu baxımdan xüsusi önəm daşıyır və mühiti öyrənmək baxımından ciddi faktura ilə müəyyənləşir.

Şeirlərin məna zənginliyində bütün olanlar məhəbbətin ifadəliliyinə köklənir. Yurd, torpaq sevgisi, insanın mənəvi və zahiri gözəlliyinin təsvir və tərənnümü, lirik mənin hiss və duyğularının ifadəliliyi bir tərəf kimi aşıq yaradıcılığında özünə geniş yer alır. Bu cəhətdən ustad sənətkarların aşıq poeziyasında yaradığı bu mövzulu əsərlərə prof.Qara Namazov çox yüksək qiymət verərək yazır: "İnsan məhəbbəti, insan gözəlliyi: insanın amalı və mənəvi qüdrəti xalq aşığının ilham mənbəyi olmuş, onu riqqətə gətirmişdir. Buna görə də məhəbbət və gözəllik aşıqların həmişə müraciət etdikləri mövzu olmuşdur. Daha doğrusu, aşıq sənəti məhəbbət və gözəllik duyğularından

yaranmışdır. Aşıq sənətinin mövzusu yalnız aşiqanə hisslərin bədii təsviri və tərənnümü ilə məhdudlaşmayıb, insan qəlbinin nəhayətsiz istəkləri, ülvi duyğuları, hiss və həyəcanları, təbiətin əsrarəngiz gözəllikləri, bu gözəlliyin insanda doğurduğu əhval-ruhiyyələrlə zənginləşmiş və rahiyələnmişdir." (7, 104) Xəstə Hasanın yaradıcılığının da enerji qaynağında bunlar üstünlük təşkil edir. O, məhəbbət mövzusunda mənalı, dəyərli şeirlər yaratmışdır. Məhəbbət yolunda fədakarlığa dözmək, sevgi iztirabları, vüsal həsrəti bu cür şeirlərin başlıca mövzusunu təşkil edir.

Könül quşi arz eylədi silahi,
Şimdi yada düşdi sinə səvdügüm,
Həsrətindən yana-yana kül oldum,
Yandım döndüm gülə, səvdügüm.

Həsrətindən üç gün qalsam arali
Geniş dünya bu başima tarali
Nə müddət diyersin qəlbi qarali
Gəl səninən vədə kəsax, səvdügüm. (1. 184)

Göründüyü kimi, burada aşiqin məşuqəsinə olan sevgisi bədii mətnə gətirilir, həsrətdən yanaraq külə döndüyü, həmçinin geniş dünyanın ona dar gəldiyi ifadəsini tapır. Klassik ənənəyə köklənən bu nümunələr, eləcə də digər səpkili şeirlər bütünlükdə ənənəni özündə ehtiva edir.

Ümumiyyətlə, qadın gözəlliyi, vətən təbiətinin füsunkarlığı aşıqların telli sazına söz incilərindən bəzək vermişdir. Klassik aşıqlar öz şeirlərində təmiz, ləkəsiz, boyasız, müqəddəs duyğuları tərənnüm etmişlər. Onlar lirik şeirlərində aşiqin məhəbbət yolundakı cəfakeşliyini, sabit qədəm olmasını, aşiq ilə məşuqun iztirab və sevinclərini təsirli boyalarla vermişlər". (6, 9)

Ustad sənətkar aşıq şeirinin müxtəlif formalarında məhəbbət mövzusunda dediyi əsərləri ilə xalq yaradıcılığına yeni çalarlar gətirmişdir. Dövrün bədii-estetik mənzərəsi, mühitin ümumi düşüncə informasiya təfərrüatlı təhlillərə, bilgiyə şərait yaradır. Xəstə Hasan məhəbbət mövzusunda yaratdığı şeirlərində səlvi boylu, şəkər dilli, mina gərdənli, bədir sifətli, ay camallı, müjgan kirpikli, hilal qaşlı gözəllərin bədii portretini yaratmışdır. Belə gözəllərin təsvirində aşıq real boyalardan, təbii bənzətmələrdən yerli-yerində istifadə etmişdir:

Könül, səni müjdələyim savaxdan,
Budur üzü xallı yarım gəliyer.
Əzələri, məzələri, ləbləri,
Dili şəkər-ballı yarım gəliyer.

Ay qız, əbruların gərdənnən aşar,
Bad əsəndə incə belə sarmaşar,
Alların o xala nə xub yaraşar,
Boyu səlvi boylu, yarım gəliyer. (8, 86)

Aşıq qadın gözəlliyini obrazlı bir şəkildə vermək üçün səlvi boylu, şəkər dilli, fitnə qaşlı kimi bənzətmələrə yer vermişdir.

Xəstə Hasanın şeirlərinin böyük qismi el gözəllərinin tərifindən ibarətdir. Klassiklərin, şifahi və yazılı ədəbiyyatın görkəmli nümayəndələrinin yaradıcılığında bu bir xətt olaraq özünü göstərir. Qurbani, Abbas Tufarqanlı, Sarı Aşıq, Xəstə Qasım, Aşıq Valeh, Ağ Aşıq, Aşıq Hüseyn Şəmkirli, Aşıq Alı, Aşıq Ələsgər və başqalarının yaradıcılığında bu tip nümunələrə rast gəlirik. Onların təsvir etdiyi gözəllər geyimindən tutumuş, yeriş-duruşuna, əhval-ruhiyyəsinə kimi vəsf olunmuşlar. Xəstə Hasan da elin-obanın gözə gələn qızlarını özunəməxsus deyim tərzində tərənnüm edir, tərif elədiyi gözəlin adını çəkir və konkret bir şəxsə ünvanlayır:

Təzədən bir gözəl çıxdı aləmə,
Al yanağa, gül buxağa maşallah!

Onun gözəlliyin aldım qələmə,
Bədir sifət, ay camala maşallah! (8, 101)
Və yaxud:
Xəstənin yarısın ay gözəl Fədi,
Artırdın dərdimi eylədin dəli.
Göylərin ülkəri, elin sərdəri,
Sən getdin, cəsətdə canım da getdi. (8, 82)

Lirik mənin hiss və duyğuları, mənəvi aləminin zənginlikləri, istək və arzuları aşıq tərəfindən yüksək ustalıqla mətnə gətirilir. Ümumiyyətlə, aşıq yaradıcılığı milli-mənəvi yaddaşın ifadəliliyi anlamında kifayət qədər ciddi məzmun kəsb edir. X.Hasanın şeirləri də mühitin etnoqrafik mənzərəsini, inam və etiqadlarını ifadə etmək baxımından müstəsna imkanlılıqla görünür. Qoşmadan aydın görünür ki, sənətkarın vəsf etdiyi gözəl – Fədi Alosman elindəndir. Fədi Xəstə Hasanın real həyatda, toyda, yığıncaqlarda rast gəldiyi el qızlarındandır. Xəstə Hasan qadının daxili və zahiri gözəlliyindən bəhs edərkən onun bütün tərəfləri ilə canlı obrazını yaratmağa çalışır. Aşiqin sevgisini misra və bənd səviyyəsində obrazlaşdırır.

Yaxşı olar baş qoyasan, bir gözəlin qucağına.
Yanağın bu yanağına, dodağın o dodağına.
Tutasan əllərinnən, dolanasan otağına.
Yuxun da gəlməz yatasan, belə yarın həvəsinnən.

Qarannıxda dadı olmaz, məşhəlini yandırasan.
Həmi sağa, həmi sola, müleyimcə döndərəsən.
O sənnən küşk tutacax, başarginən sən yıxasan.
Yuxun da gəlməz yatasan, belə yarın həvəsinnən. (8, 123)

Onu da qeyd edək ki, klassik poeziyamızda olduğu kimi, aşıq yaradıcılığında da qadın gözəlliyinin başlıca xüsusiyyəti ədəb, mərifət, vəfa, təmiz addır. Ona görə də qadına, gözələ yalnız sevgili kimi deyil, həyat yoldaşı, gələcəyin anası, övladların ilk tərbiyəçisi kimi baxılmışdır. Bu ruhda olan şeirlərə Xəstə Hasanın sələflərinin xələflərinin yaradıcılığında da rast gəlirik. Qurbani, Abbas Tufarqanlı, Sarı Aşıq, Xəstə Qasım yaradıcılığı və s. buna nümunədi. Yazılı ədəbiyyatın görkəmli nümayəndələri Vaqif, Zakir, M.Aşiq, C.Nəva, Ə.Nəbati, X.Natəvan və s. öz şeirlərində bu ideyaların ifadəsinə xüsusi həssaslıqla yanaşır.

Onu da əlavə edək ki, Xəstə Hasanın yaradıcılığı təkcə məhəbbət, sevgi duyğuları ilə məhdudlaşmır. Didaktik motivli şeirlər bir xətt olaraq özünü göstərir. Ümumiyyətlə, aşıqlar cəmiyyətdə baş verən hadisələrin qısa təhlilini verir, əxlaqi nəticələr əsasında məsləhət, nəsihət, ruhlu şeirlər yaradırlar. Öyüd-nəsihət məzmunlu şeirlər aşıq yaradıcılığında geniş yer tutur. Belə məzmunlu şeirlər aşıq yaradıcılığında ustadnamə və ya nəsihətnamə kimi qeyd olunur. Qoşma şəklində yazılan belə nümunələrə ən çox məhəbbət dastanlarımızda rast gəlinir. Məhəbbət dastanlarımızın əksəriyyəti ustad nəsihəti ilə başlayır. Belə ustadnamələr dastanın əsas mətni ilə birbaşa əlaqədar olmasa da insanlara əxlaqi-tərbiyəvi fikirlər aşılayır. Aşıq şeirinin bu növündə insanın mənəvi gözəlliyi, cəmiyyət içərisində davranış qaydaları, xalqın adət-ənənəsinə uyğun tərənnüm olunur. Belə öyüd-nəsihət ruhlu şeirlər Xəstə Hasanın yaradıcılığı üçün də səciyyəvidir.

Bəyzadalar məclisinə gələndə,
Axlı kamil olan, ayağı gözdər.
Ustadınnan nəsyət alan kimsələr,
Axlı kamil olan, əyaği gözdər. (8, 68)

Qoşmadan da bəlli olduğu kimi, aşıq məclisdə, xalq içərisində özünü mərifətli aparmağı, sadə olmağı, ustadından nəsihət alan hər kəsin öz yerini bilməsini, var-dövlətinə, gücünə güvənib başa keçməməyi məsləhət görür. Aşıq elin anası kimi bütün zamanlar boyu milli-mənəvi dəyərlərin təbliğatçısı, el məclislərinin bəzəyi olmuşdur. Mərifət elmində kamil olan bu şəxslər həmişə xalqla birgə olmuş, birgə mənəvi dəyərlərə sahib çıxmışlar. O.Sarıvəlli bu səbəbdən də xüsusi olaraq

vurğulayırdı ki, aşıq eldən alar öz nəfəsini. Xəstə Hasanın ustadnamələri məhz bu dəyərləri əks etdirmə gücü ilə yaşarlıq qazanmışdır.

Xəstə Hasan nəsihət ruhlu şeirlərində yaşadığı mühitdə gördüyü, eşitdiyi hadisələrə biganə qalmamış, ona öz münasibətini bildirməyə çalışmışdır. Dövrün ictimai-siyasi problemləri, xalqın həyatının ən maraqlı, tipik örnəkləri onun şeirlərində mövzuya çevrilmişdir. Ona görə də bu nümunələrin enerji qaynağı bir problem olaraq həmişə açılma aktuallığı ilə maraq doğurur. Bir gəraylısında da aşıq insanları, dostluğa, qardaşlığa, birliyə, mehriban olmağa səsləyirdi:

Xəstə Həsən, sözlərimi
Dinləyənə nəsihət.
Yatanda eylə salavat,
Qalxanda et vəsiyyət.
Göydən yağmadı rəhəmət,
Yerdən qalxdı bərəkət,
Keçdi günüm, doldu sinnim,
İxtiyar üstündədi. (2. 176)

Bütün bunlar Xəstə Hasanın yaradıcılığının mövzu və mündəricə zənginliyini, yaradıcı istedadının imkanlarını, dünyagörüşünü, ustad olaraq hansı duyğularla yaşadığını Axıska aşıq mühitində yerini aydınlaşdırmaq üçün kifayət qədər material verir.

**Ədəbiyyat:**


1. Ahıska türk folkloru. (A.Hacılı. A.Poladoğlu) Bakı, Mütərcim, 1998, 228 s.
2. Azərbaycan folkloru antologiyası. Borçalı folkloru. Bakı, Azərnəşr, 1996, 260 s.
3. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, Elm və təhsil, 2012, 600 s.
4. Hacılı A. Axısqalı Aşıq Molla Məhəmməd Səfili. Bakı, Mütərcim, 2014, 84 s.
5. Hacılar V. Xəstə Hasan. Həyatı, şeirlərindən seçmələr. Tiflis, Universal 2009, 86 s.
6. Həkimov M. Azərbaycan kalssik aşıq yaradıcılığı. Bakı, APİ, 1982, 87 s.
7. Namazov Q. Azərbaycan aşıq sənəti. Bakı, Yazıçı, 1984, 192 s.
8. Şamilov Ə. Axısqalı Xəstə Hasan (şeirləri və şeirlərinin yaranması haqqında rəvayətlər). Bakı, Elm və təhsil, 2012, 248 s.


**Гюнель Тельман Хыдырлы**

**Богатство содержания в лирике Хесте Гасана**
**Резюме**

Статья посвящена фольклорным образцам турок-ахыска, в частности, тематическим направлениям в творчестве Хаста Гасана, являющегося одним из самых выдающихся его представителей. Источником высоты и недосягаемости искусства Хаста Гасана является окружающая среда. В данной статье, посвящённой богатству содержания поэзии Хаста Гасана, рассмотрены научные основы поэтического наследия, в основном, причины его популярности в Ахыска.

Поэзия художника очень богата с точки зрения темы, жанра, системы художественного смысла. Тема его стихов - религия, тоска по родине, любовь, морально-дидактичекая. В стихотворениях поэта, выражающих тоску по родине, в центре внимания – связь народа с политическими, историческими событиями, происходящими в жизни народа. В стихотворениях религиозного содержания упоминается священная книга ислама Коран, имя пророка Мухаммеда (Мир ему и благословение!), 12 имамов, Хазрета Али. В таких стихах не

просто прославляются Бог, Мухаммед, Али и другие, в том числе пропагандируются высокие моральные ценности.

В поэзии ашуга преобладает много оттенков любви. Как видно из примеров, ашуг, используя мотивы красоты в любовной лирике, проникает во внутренний мир человека, призывая его к совершению добрых дел, к морали и добропорядочности. Отмечается, что под основным признаком женской красоты понимается мораль и воспитанность.

Хаста Гасан является одним из выдающихся последователей классических поэтических традиций в современной ашугской поэзии. Здесь также подчёркиваются существенные особенности индивидуального стиля профессионального ашуга, мастерское использование способов художественного описания и выражения на основе конкретных примеров. Как видно из статьи, Хаста Гасан продолжил все прогрессивные традиции тем ашугской поэзии. Преимущество актуальности стихов прояснены с помощью художественных образцов.

Ключевые слова: любовь, стихи, религия, красивая, ашуг

**Gunel Telman Khidirli**

**The richness of content in the lyric of Khasta Hasan**
**Summary**

The article focuses on the folklore samples of the Ahıska Turks, in particular the direction of the Khasta Hasan, one of his most prominent representatives. Khasta Hasan's art and creativity, first and foremost, originated from the environment. This article, devoted to the richness of the poetry of Hasan's poetry, examined the scientific foundations of the artist's poetic heritage, especially the reason for his popularity in Axis.

The artist's poetry is very rich in subject, genre, artistic sense. The theme of his poems has been analyzed in terms of religion, homeland longing, love, moral and didactics. The poet's poetry expressing his longing for his homeland has been maintained in the focus of political and historical events in the life of the nation. Poems in religious terms contain the holy book of Islam, the Quran, the Prophet Muhammad, the 12 Imams, and the names of Hazrat Ali. In such poems, not only God, Muhammad, Ali and others are praised, but also high moral values are being propagated to people. In the poetry of the ashug, many shades of love are observed. As can be seen from the examples, the ashug uses the motives of love in the lyric to spread the inner world of the person, inviting him to do good deeds, morals and morals. As the main sign of women's beauty, it is understood that it is morals and enlightenment.

Khasta Hasan is one of the outstanding followers of classical poetic traditions in modern ashug poetry. Here, too, the essential features of the individual style of master lover, the ability to use artistic expression and expression have also been interpreted on the basis of specific examples. It is clear from the article that Khasta Hasan continued to pursue all the progressive traditions of the subject area of ashug poetry. The novelty of poetry's actuality has been clarified through artistic samples.

Key words:love, poem, religious, beautiful, ashug

Redaksiyaya daxil olma tarixi: 1.04.2019
çapa qəbul olunma tarixi: 17.04.2019
Filologiya elmləri doktoru, professor Mahmud Allahmanlı tərəfindən çapa tövsiyə olunmuşdur.